# Şuşada beynəlxalq tədbirlərin keçirilməsi şəhərin strateji əhəmiyyətini gücləndirəcək



***Yaxın zamanlarda Şuşada daha çox yerli və beynəlxalq tədbirlərin təşkili mümkün olacaq ki, bu da strateji baxımdan şəhərin əhəmiyyətini daha da gücləndirəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə səfəri çərçivəsində "Otel və Konfrans Mərkəzi"nin təməlinin qoyulması və yenidənqurma işləri yekunlaşan "Qarabağ" hotelinin açılış mərasimi bunu deməyə əsas verir.***

Şuşa yenidən qurulur və əvvəlki tarixi və strateji mövqeyini möhkəmləndirir. Qürur mənbəyimiz olan bu şəhər uzun müddət Qarabağın əsas iqtisadi mərkəzlərindən hesab olunub. Həm şəhər, həm də eyni adlı rayon sənaye, kənd təsərrüfatı və xüsusən emaledici sektorların inkişafı üzrə fərqlənib.

Ötən əsrin əvvəllərində Şuşada 1700-ə yaxın ticarət obyekti qeydə alınıb ki, bu da şəhərin hələ bir əsr öncə xüsusi iqtisadi potensiala malik olduğunu göstərir. Qeyd edim ki, 20,9 min hektar yararlı torpağı olan Şuşada kənd təsərrüfatında heyvandarlıq daha çox inkişaf edib. 1992-ci ildə, Şuşa işğal olunmamışdan öncə şəhərdə şərq musiqi alətləri fabriki, istehsalat kombinatı, Bakı "Radioquraşdırma" İstehsalat Birliyinin müəssisəsi, Qarabağ ipək kombinatının toxuculuq sexi və digər istehsal müəssisələri var idi. Şuşada, eyni zamanda, inşaat materialları istehsalı üzrə də müəssisələr fəaliyyət göstərirdi. Turizm Şuşanın iqtisadiyyatında xüsusi yer tuturdu. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü turizm baxımından xüsusi üstünlüyə malik idi. 1992-ci ilədək Turşsu istirahət və müalicə zonası fəaliyyət göstərirdi.

İstifadəyə verilən "Qarabağ" hoteli və təməli qoyulan "Otel və Konfrans Mərkəzi" Şuşa şəhərində daxili və gəlmə turizmin inkişafına xüsusi töhfə verəcək. Eyni zamanda, yaxın zamanlarda Şuşada daha çox yerli və beynəlxalq tədbirlərin təşkili mümkün olacaq. Bu da strateji baxımdan şəhərin əhəmiyyətini daha da gücləndirəcək.

Bu gün Şuşa yeni inkişaf çağını yaşayır. Bərpa və yenidənqurma mərhələsi yeni iqtisadi inkişaf dövrü ilə əvəzlənir.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti.-2021.- 3 sentyabr.- S.4.